1_Layout 1 27.03.2014 12:18 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 06 (424)

31 mart 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# DAXİLİ QOŞUNLARIN YARANMASININ 22-ci İLDÖNÜMÜ TƏNTƏNƏ İLƏ QEYD OLUNDU

## İ.A.MƏMMƏDOVA GENERAL-MAYOR HƏRBİ RÜTBƏSİNİN VERİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin rəisi İlqar Aydın oğlu Məmmədova general-mayor hərbi rütbəsi verilsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 8 mart 2014-cü il.**

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARI HƏRBİ QULLUQÇULARININ TƏLTİF EDİLMƏSİ HAQQINDA

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 22-ci ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Alıyev Fuad Məhəmmədəli oğlu – polkovnik
Nəbiyev Rəşadət Kazım oğlu – polkovnik.

**"İgidliyə görə" medalı ilə**

Rzayev Faiq Hüseynağa oğlu – əsgər (ölümündən sonra).

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Səmədov Fəxrəddin Cavanşir oğlu – general-mayor
Cəfərov Akif Meyləqulu oğlu – polkovnik
Əliyev Zəfər Baloğlan oğlu – polkovnik
İbrahimov Elmir Zülfüqar oğlu – polkovnik
Aydınov Vüqar Əlirza oğlu – polkovnik-leytenant
Fərmanov Tamerlan Baloğlan oğlu – polkovnik-leytenant
Hacıyev Əlican Məlikağa oğlu – tibb xidməti polkovnik-leytenantı
Qasımov Əli Qasım oğlu – polkovnik-leytenant
Rzayev Zabil Xanış oğlu – polkovnik-leytenant
Umudov İlham Umud oğlu – polkovnik-leytenant
Yüzbaşıyev Vaqif Camal oğlu – polkovnik-leytenant
Əsədov İlkin Sabir oğlu – mayor
Fərəczadə Ağaismayıl Fərəc oğlu – mayor
Həmidov İlqar Abdulbaqi oğlu – mayor
İsayev Nəriman Hüseynqulu oğlu – mayor
Meybiyev Gülağa Ənvər oğlu – mayor
Məmişov Mübariz Qəzənfər oğlu – mayor
Məmmədov Elçin Əziz oğlu – mayor
Bayramov Vüsal Bəhram oğlu – kapitan
İsmayılov Rövşən Vilayət oğlu – baş gizir
Quliyev Emin Ədalət oğlu – baş gizir
Yeryomiçev Aleksey İoannoviç – baş çavuş.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 8 mart 2014-cü il.**

***Bu münasibətlə martın 12-də Daxili Qoşunların komandanlığı və bir qrup hərbi qulluqçu Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini ehtiramla yad etmişdir.***

***Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılmış, məzarı üzərinə tər çiçək dəstələri düzülmüşdür.***

***Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının unudulmaz xatirəsi yad edilmiş, "Əbədi məşəl" önünə əklil qoyulmuşdur.***

***Torpaqlarımızın azadlığı uğrunda Daxili Qoşunların şəhid olmuş hərbi qulluqçularının qardaşlıq məzarı önünə gül dəstələri düzülmüş, türk şəhidlərinin xatirəsinə ucaldılmış abidə ziyarət olunmuşdur.***

***Sonra Daxili Qoşunların Baş İdarəsində qurumun yaranmasının 22-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.***

Tədbirdə respublikanın Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov iştirak etmişdir.

Əvvəlcə Daxili Qoşunların döyüş bayrağı gətirilmişdir. Ulu Öndər Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda xidməti borclarını yerinə yetirərkən qəhrəmanlıqla həlak olmuş hərbi qulluqçuların və bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Azərbaycanın dövlət himni səsləndirilmişdir.

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı, general-mayor Şahin Məmmədov qurumun yaranması, inkişafı və bu günü barədə geniş məruzə ilə çıxış etmiş, Ümummilli Lider Heydər Əliyevin 1995-ci il martın 9-da imzaladığı Fərmanla Azərbaycan Respublikası Daxili Qoşunlarının ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşə başladıqları günün - martın 12-nin "Daxili Qoşunlar Günü" elan olunduğunu xatırlatmışdır.

Qeyd olunmuşdur ki, ötən illər ərzində Daxili Qoşunlar ölkənin ictimai-siyasi həyatında baş verən bütün proseslərin bilavasitə iştirakçısı olmuş, ciddi sınaq və çətinliklərdən dəyanətlə çıxmışdır. Ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə Daxili Qoşunların şəxsi heyətindən 510 hərbi qulluqçu həlak olmuş, 1166 nəfəri yaralanmış, 268 nəfəri itkin düşmüş, 9 nəfəri isə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. General-mayor Ş.Məmmədov bildirmişdir ki, Daxili Qoşunların xalqımıza, Azərbaycan dövlətinə və dövlətçiliyinə sədaqətlə xidmət etməsi, fədakarlığı Ulu Öndər Heydər Əliyevin və Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqətindən kənarda qalmamış, bir çox hərbi qulluqçu dövlət mükafatlarına layiq görülmüşdür.

Daxili Qoşunların yüksək döyüş hazırlığına malik bir qurum olduğunu deyən Daxili Qoşunların Komandanı əminliklə vurğulamışdır ki, Daxili Qoşunlar qarşıya qoyulan xidməti vəzifələrini tam yerinə yetirməyə qadirdir.

Azərbaycan Respublikası Prezidentinin müdafiə məsələləri üzrə köməkçisi, Prezident Administrasiyası rəhbərinin müavini, general-leytenant Vahid Əliyev Daxili Qoşunların şəxsi heyətini peşə bayramları münasibətilə təbrik etmişdir. Bildirmişdir ki, Prezident İlham Əliyevin Silahlı Qüvvələrə diqqəti və qayğısı nəticəsində Daxili Qoşunlarda da davamlı olaraq inkişaf prosesi gedir. O, qoşunlarda aparılan islahatlar nəticəsində yüksək döyüş hazırlığına, maddi-texniki təminata nail olunduğunu qeyd etmiş, hərbi qulluqçuların sosial vəziyyətinin və digər məsələlərin həlli baxımından son illəri yeni inkişaf dövrü kimi dəyərləndirmişdir.

Sonra Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bayram münasibətilə təbriklərini və xoş arzularını şəxsi heyətə çatdırmışdır. O, Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu çərçivəsində Daxili Qoşunların təkmilləşdirilməsinə böyük önəm verdiyini, məhz Ulu Öndərin xüsusi diqqət və qayğısı ilə formalaşıb inkişaf etdiyini, yüksək döyüş hazırlığı olan peşəkar və mobil bir quruma çevrildiyini məmnunluqla xatırlatmışdır.



General-polkovnik R.Usubov vurğulamışdır ki, Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyev Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, peşəkarlığının yüksəldilməsinə daim ali diqqət və qayğı göstərir. Məhz dövlət başçısının tələb və göstərişlərinin, xüsusi diqqət və qayğısının nəticəsidir ki, Daxili Qoşunlar qarşıya qoyulan istənilən döyüş tapşırığını layiqincə yerinə yetirməyə qadirdir. Qoşunlar milli mənafelərimizin keşiyində ayıq-sayıq dayanır və ölkədə daxili sabitliyin qorunmasında əsas qüvvələrdən biridir.

Nazir demişdir ki, bu siyasəti uğurla davam etdirən dövlətimizin başçısının Daxili Qoşunların inkişafı üçün qəbul etdiyi qərarlar, göstərdiyi diqqət və qayğı şəxsi heyət tərəfindən həmişə dərin minnətdarlıqla və ruh yüksəkliyi ilə qarşılanır. Ölkəmizin rəhbərinin Daxili Qoşunların müxtəlif tədbirlərində iştirakı, eləcə də qoşunların xidməti fəaliyyətinə verdiyi yüksək qiymət, haqqında söylədiyi dəyərli fikirlər, verdiyi tövsiyələr hər zaman fəaliyyət proqramı kimi qəbul olunmaqla şəxsi heyəti daha böyük uğurlara ruhlandırır.

İstənilən cəmiyyətdə tərəqqinin, inkişafın əsasında dayanan əsas amillərdən birinin daxili sabitlik və təhlükəsizlik amilinin olduğunu xatırladan R.Usubov Daxili Qoşunların torpaqlarımızın qorunmasında fədakarlıq göstərdiyini, yüzlərlə şəhid verdiyini və sonrakı illərdə ölkəmizdə müstəqilliyin, daxili sabitliyin qorunmasında əzmkarlıq nümayiş etdirdiyini, yüksək peşəkarlığa və mənəvi-psixoloji hazırlığa malik olan bir quruma çevrildiyini məmnunluqla vurğulamışdır. Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dəfələrlə hərbi hissələrdə olması, şəxsi heyətin sosial-məişət şəraiti ilə yaxından maraqlanması Daxili Qoşunların sıralarında xidmət edən hər bir hərbi qulluqçunun döyüş əzminin yüksəlməsinə stimul verir, onların Vətənə, xalqa xidmət əzmini daha da artırır. Qeyd olunmuşdur ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan üzərilərinə düşən vəzifələri daha böyük məsuliyyətlə yerinə yetirməyi, sabitliyin, təhlükəsizliyin, əmin-amanlığın, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi təminini tələb edir.



Daxili İşlər Naziri, general-polkovnik R.Usubov yalnız xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra Azərbaycanın onu gözləyən təhlükələrdən qurtulduğunu diqqətə çatdırmışdır.

Xüsusi qeyd edilmişdir ki, məhz Ümummilli Liderimizin rəhbərliyi altında ölkə həyatının bütün sahələrində, o cümlədən ordu quruculuğunda aparılan islahatlar Daxili Qoşunların da müasir beynəlxalq standartlar səviyyəsində formalaşması üçün möhkəm təməl yaratmışdır. Ulu Öndərin imzaladığı tarixi fərman və sərəncamlar hərbi xidmətin və döyüş hazırlığının yüksəlməsi, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmlənməsi, hərbçilərin sosial təminatının yaxşılaşması ilə nəticələnmiş, qoşunların idarə edilməsində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur.

Daxili İşlər Naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevi əmin etmişdir ki, Daxili Qoşunların şəxsi heyəti bundan sonra da qarşıda duran bütün vəzifələri yüksək səviyyədə yerinə yetirəcək, Azərbaycan dövlətinə, dövlətçiliyinə, Vətənə, Ali Baş Komandana sədaqətli xidmətini davam etdirəcəkdir.

Daha sonra Daxili Qoşunların yaranmasının növbəti ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin verdiyi sərəncamlar, həmçinin Daxili İşlər Nazirinin və nazir müavini - Daxili Qoşunlar Komandanının imzaladıqları əmrlər elan olunmuşdur. Xidmətdə fərqlənmiş bir qrup hərbi qulluqçuya dövlət təltifləri və yeni rütbələr təqdim edilmişdir.

Tədbirin sonunda mərasim iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul olunmuşdur.

2_Layout 1 27.03.2014 12:20 Page 1



# DİN DAXİLİ QOŞUNLARININ ZABİT VƏ GİZİRLƏRİ ÜÇÜN NÖVBƏTİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI OLMUŞDUR



***Daxili Qoşunların yaranmasının 22-ci ildönümü ərəfəsində qurumun paytaxtın Biləcəri qəsəbəsində yerləşən 99713 saylı hərbi hissəsinin ərazisində zabit və gizirlər üçün yeni tikilmiş yaşayış kompleksi istifadəyə verilmişdir.***

***Bu münasibətlə keçirilmiş tədbirdə respublikanın Daxili İşlər Naziri, general-polkovnik Ramil Usubov iştirak etmişdir.***

Əvvəlcə Daxili İşlər Nazirinin qarşılanma mərasimi olmuşdur. Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı, general-mayor Şahin Məmmədov general-polkovnik R.Usubova şəxsi heyətin mərasimə hazır olması barədə raport vermişdir.

Sonra general-mayor Ş.Məmmədov çıxış edərək yeni kompleksin açılışının Daxili Qoşunların həyatında əlamətdar günlərdən biri olduğunu qeyd etmiş, bunu Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Silahlı Qüvvələrə, o cümlədən Daxili Qoşunlara xüsusi diqqət və qayğısının nəticəsi kimi qiymətləndirmiş, Daxili Qoşunların komandanlığı və şəxsi heyəti adından ölkə rəhbərliyinə dərin minnətdarlığını bildirmişdir.

Qeyd olunmuşdur ki, inşasına 2012-ci ilin iyununda başlanmış iki ədəd 6 mərtəbəli (zirzəmi daxil olmaqla) yeni kompleksin ümumi sahəsi 12200 kvadratmetrdir. İki binada ümumilikdə 120 mənzil vardır və onların hər biri zəruri avadanlıqlarla təchiz edilmişdir.

Daha sonra Daxili İşlər Naziri, general-polkovnik R.Usubov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin salamlarını və təbriklərini tədbir iştirakçıların çatdırmış, yeni mənzillərin sahiblərini və ailə üzvlərini təbrik etmiş, onlara xoşbəxtlik, cansağlığı və xidməti fəaliyyətdə uğurlar arzulamışdır.

O, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkənin ictimai-siyasi, iqtisadi həyatında, ordu quruculuğunda böyük uğurlar qazanıldığını, daxili işlər orqanlarının maddi-texniki bazasının daha da möhkəmləndiyini, hərbi qulluqçuların sosial-məişət şəraitinin ilbəil yaxşılaşdığını vurğulamışdır. Nazir demişdir ki, son illərdə Daxili Qoşunlar üçün də müxtəlif təyinatlı onlarca obyektlər, hərbi şəhərciklər, o cümlədən hərbi qulluqçular üçün yeni yaşayış kompleksləri, əsgər kazarmaları, müasir avadanlıqlarla təchiz edilmiş tibb məntəqələri və s. tikilərək istifadəyə verilmişdir. Bildirilmişdir ki, Biləcəri qəsəbəsində yüksək səviyyədə inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsi də Prezident İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.



Nazir yaşayış kompleksinin açılışını bildirən lenti kəsmiş, burada hərbi qulluqçular üçün yaradılmış şəraitlə yaxından tanış olmuşdur.

Yeni tikilidə mənzillə təmin olunan Daxili Qoşunların zabitləri - mayor Çingiz Məmmədov, kapitan Anar Alıyev və onların ailə üzvləri göstərilən ali diqqət və qayğıya, hərbi qulluqçuların sosial rifah halının, mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılmasına görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə minnətdarlıqlarını bildirmişlər.

**Mətbuat Xidməti**

# DÖVLƏT BAYRAĞININ TƏBLİĞİ MUZEYİNDƏ

Bu gün Dövlət Bayrağı Meydanı hər bir Azərbaycan vətəndaşının üz tutduğu, görmək istədiyi ən sevimli, qürurverici, müqəddəs bir məkandır. Bu səbəbdən də Dövlət Bayrağı Meydanına üz tutanların sayı günbəgün, saatbasaat artmaqdadır. Artıq hər bir təşkilatın, qurumun, idarə və müəssisənin yaranma gününü qeyd etməyə bu müqəddəs yeri ziyarətlə başlaması ənənəyə çevrilmişdir.

Bu sırada ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün və dövlətçilik ənənələrinin qorunmasında özünəməxsus xidmətləri olan Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının da xüsusi yeri vardır.

Səkkizguşəli ulduz formasında yaradılmış Dövlət Bayrağı Muzeyi ilə tanış olan Daxili Qoşunların şəxsi heyətinə məlumat verilmişdir ki, burada müxtəlif dövrlərdə Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin, xanlıqların, o cümlədən İrəvan xanlığının bərpa olunmuş bayraqları, həmçinin XVII-XVIII əsrlərə aid bayraqların uc elementləri, gerblər, Azərbaycan Respublikasının müxtəlif illərdə qəbul olunmuş konstitusiyaları, poçt markaları, pul nişanlarının nümunələri, orden və medalları, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan dövlətinin yaranması, formalaşması və inkişafını, Prezident İlham Əliyevin ölkəmizin tərəqqisi ilə bağlı fəaliyyətini əks etdirən çoxsaylı fotolar və sənədlər, Silahlı Qüvvələrin Ali Baş Komandanının bayrağı, Silahlı Qüvvələrin qoşun növlərinin döyüş bayraqları və mərasim geyimləri nümayiş olunur.



Martın 12-də yaranmasının 22-ci ildönümünü təntənəli surətdə qeyd edən Daxili Qoşunların şəxsi heyəti dövlətçilik tariximizin, dövlət atributlarımızın öyrənilməsində müstəsna əhəmiyyət kəsb edən Dövlət Bayrağı Meydanında olmuşdur.

Şəxsi heyətə müqəddəslik rəmzinə çevrilmiş, hamımızın qürur yeri olan üçrəngli Azərbaycan bayrağı haqqında geniş məlumat verilmişdir.

Bildirilmişdir ki, hər bir xalqın bayrağı onun milli kimliyinin, dilinin, mədəniyyətinin, dini-mənəvi əxlaqının, bir sözlə, milli ideologiyanın ifadəsidir. Bayraq elə bir rəmzdir ki, millət onda keçmişini və bugününü görür, bu bayrağın müqəddəsliyinə tapınaraq gələcəkdə atacağı addımları müəyyənləşdirir. Bu səbəbdən də hər bir Azərbaycan vətəndaşı uca bayrağımızı müqəddəs hesab edir.

Qeyd edilmişdir ki, dünyada nadir muzeylərdən biri olan Dövlət Bayrağı Muzeyində, həmçinin Ginnes dünya rekordları təşkilatının Azərbaycanın dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiqləyən sertifikatı, müxtəlif kitablar, fotoşəkillər, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədəki səfirliyinin binası üzərində dalğalanmış bayraq da nümayiş etdirilir.

Dövlət Bayrağı Meydanı ilə tanışlıq Daxili Qoşunların şəxsi heyətində zəngin təəssürat yaratmışdır.

**"Əsgər"**

# VƏTƏNƏ SEVGİ, DÖVLƏTƏ SƏDAQƏT, XALQA XİDMƏT

Haqqında söhbət açacağım şəxslə yollarımız 20 il bundan öncə respublikamızın şimal-qərb bölgəsində kəsişmişdi. Mən hər şeydən əvvəl iç dünyasının zənginliyinə, əxz edə biləcəyim ali keyfiyyətlərin çoxluğuna görə bu tanışlıqdan məmnun idim. Mən orada doğulub böyümüşdüm, yerli qəzetdə çalışır, region televiziyasına verilişlər hazırlayırdım. Şahin müəllim - Şahin İsgəndər oğlu Məmmədov isə Azərbaycan DİN Daxili Qoşunlarının həmin ərazidə dislokasiya olunmuş əlahiddə taborunun komandiri idi. Vaxtaşırı idarə-müəssisə və hüquq-mühafizə orqanlarının rəhbərləriylə birgə rayon tədbirlərinə qatılır, lazım gələndə mövzuya uyğun dəyərli çıxışlar edirdi. Dərin biliyi, geniş dünyagörüşü, ünsiyyət mədəniyyəti ilk görüşlərdən boy göstərsə də, sonralar tabeliyindəki hərbi hissədə müddətdən artıq xidmət keçərkən onu daha yaxından tanıdım. Mükəmməl idarəçilik qabiliyyətinə və çoxcəhətli fəaliyyət sferasına malik bu adam özündə əsl rəhbərə xas keyfiyyətləri birləşdirmişdi. Elə həmin əhatəliliyinə, zəhmət çəkməkdən qorxmadan hər cür çətinlikləri ram etmək imkanlarına görə də hərbi işi, uniformanı, çiynində daşıdığı səkkizguşəli ulduzları çox sevməsinə baxmayaraq, həvalə olunan başqa mülki vəzifələrdə belə etimadı doğrultmağa qadir idi. Onda həkimlə tibb sahəsi üzrə, mühəndislə tikintidən, yazıçı ilə ədəbiyyat barədə peşəkar müzakirə aparmaq qabiliyyəti vardı. Bəs rəsmi bioqrafiyasına görə kimdir bu yazımızın qəhrəmanı?

Şahin İsgəndər oğlu Məmmədov 10 yanvar 1961-ci ildə Qazax rayonu, Yenikənd kəndində (indiki Ağstafa rayonu, Zəlimxan kəndi) anadan olub. 1986-cı ildə SSRİ DİN-in Saratov Ali Hərbi Komandanlıq Məktəbini bitirib.

1986-1992-ci illərdə keçmiş ittifaqın Daxili Qoşunlarında zastava rəisinin siyasi hissə üzrə müavini, zastava rəisi, tabor komandirinin müavini-qərargah rəisi vəzifələrində çalışıb. Azərbaycan müstəqilliyini yenidən bərpa etdikdən sonra - 09 iyun 1992-ci ildə xidmətini davam etdirmək üçün Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının Baş İdarəsinin sərəncamına göndərilib.

1992-1997-ci illərdə Daxili Qoşunlarımızda hərbi hissə (əlahiddə tabor) komandiri, hərbi hissə (briqada) komandirinin müavini-qərargah rəisi, hərbi hissənin (alay) komandiri kimi xidmət göstərib. Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda erməni təcavüzkarlarına qarşı aparılan döyüş əməliyyatlarında fəal iştirak edib. 1992-ci ilin sentyabr ayında Ağdam rayonunun Fərrux yüksəkliyi uğrunda gedən döyüşlərdə şəxsi heyətə bacarıqlı rəhbərliyi sayəsində ərazi düşməndən azad edilib, özü isə yaralanıb. 1998-ci ildən 2013-cü ilədək Azərbaycan Respublikası DİN-in Daxili Qoşunlarının Baş İdarəsində Qərargah rəisinin müavini, Qərargah rəisinin müavini-Əməliyyat və döyüş hazırlığı İdarəsinin rəisi, Qərargah rəisinin 1-ci müavini vəzifələrinədək yüksəlib. Azərbaycan Prezidentinin 09 mart 2011-ci il sərəncamı ilə Şahin Məmmədova "general-mayor" hərbi rütbəsi verilib. Ölkə başçısının 15 noyabr 2013-cü il tarixli sərəncamı ilə isə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı vəzifəsinə təyin olunub. Bir çox medallarla, o cümlədən, Prezidentin 30 iyun 2002-ci il tarixli sərəncamı ilə "Hərbi xidmətlərə görə", 10 mart 2012-ci il tarixli sərəncamı ilə "Vətən uğrunda" medalları ilə təltif edilib.

Ailəlidir, 3 övladı var.

Bu sətirlər onun vikipediyada yayılmış tərcümeyi-halındandır. Təvazökarcasına yazılsa da, bir zabitin həyat yoluna, xidmətlərinə işıq tutur. Amma mənim tanıdığım insan haqqında xatirələri bir-iki səhifəyə sığışdırmaq müşkül məsələdir. Çünki hər şeydən öncə qayğıkeşliyi, həmdərdliyi və ünsiyyət qurmaq bacarığı ilə qısa müddət ərzində hamının sevimlisinə çevrilmişdi. Hətta bir hərbi hissədən digərinə dəyişildikdən sonra belə istər kollektiv, istərsə də əhali arasında barəsində azacıq da olsa narazılıq, mənfi rəy eşitmək mümkün deyildi. Həmin dövrdə belə bir sağlam rabitənin qorunub saxlanması çox vacib sayılırdı. Əvvəla ona görə ki, ərazilərimizin 20 faizini işğalda saxlayan məkrli düşmən, nisbətən sakitliyin, əmin-amanlığın hökm sürdüyü guşələri qan çanağına çevirmək niyyətindəydi. Sonralar baş verən hadisələr göstərdi ki, adı çəkilən məkan da həmin bədnam siyahıdan kənarda deyilmiş.

İkinci, təsadüfi adamların qısamüddətli hakimiyyət böhranından sonra ölkənin parçalanması təhlükəsini görən xalq ali kürsüyə Ümummilli Lider Heydər Əliyevi dəvət eləmişdi və vəzifələrini "donduranlar" "bəlkə də qaytardılar" xəyalı ilə qarışıqlıq törədərək öz gizli məqsədlərinə çatmaq istəyirdilər.

Üçüncüsü, sərhədyanı bölgədə 20-dən artıq etnik millətin yaşaması və o taydan mütəmadi şəkildə körüklənən seperatçılıq meyilləri ayıqsayıqlıqla bərabər camaatın yanında olmağı, sadə kütlələrin bəzi cümləpərdazların toruna düşməsinə imkan verməməyi tələb edirdi. Elə insanların ürəyində yuva salmış Şahin Məmmədov məhəbbəti də bir çox olayların qarşısının sülh yoluyla alınmasına şərait yaratdı.

Savaşın məşəqqətlərini görmüş komandir fiziki cəhətdən hazırlıq, nizamnamə davranışı, intizam tələbləriylə yanaşı, tabeliyindəki hərbçilərlə səmimi münasibətlər tərəfdarı idi. Zabit və gizirlərin məişət çətinlikləri ilə maraqlanır, onların da hər bir əsgərə fərdi yanaşmasını istəyirdi. O vaxt hərbi hissə XIX əsrin otuzuncu illərində tikilmiş qalanın uca divarları ilə əhatə edilsə də, həmin səddin arxasında qaynayan həyat tərzindən kifayət qədər məlumatı vardı. Yaxşı yadımdadır, bir dəfə ikinci bölüyün "zampolit"ini çağırıb hansısa əsgəri soruşdu. Bildirdilər ki, axşam postda qarovulda dayanacağı üçün dincəlir. Cavabdeh zabiti danlayıb qəti tapşırıq verdi: "Təcili dəyişin. Bu gün onun sevdiyi qızın toyudur. Belə vəziyyətdə əsgəri silahla xidmətə göndərmək olmaz".

Müəyyən pedaqoji üsullara söykəndiyindən, Şahin müəllimin iradı, töhməti, cəzası da qəbuledilən idi və buraxılmış səhvi düzəltməyə, nöqsana yol verməməyə çağırırdı. Amma biz həm də elə rəhbərlərlə işləmişik ki, riya rənginə bulaşmış boğazdan yuxarı tərifi, mükafatı belə xoş təəssürat oyatmaqdan uzaqdır.

Xatirimdə qalan başqa bir məqam isə onun fenomenal yaddaşa və diqqətə sahib olmasıdır. Yuxarı vəzifəyə-alay komandirliyinə təyinat aldıqdan sonra bir məsələ barədə məsləhətləşmək üçün telefon açmışdım. Dinləyib rəyini bildirdikdən sonra gözlənilmədən "sabah sənin ad günündür, təbrik edirəm" söylədi. Şübhəsiz ki, çox sevindim, ancaq polkovnikin adi bir gizirin doğum gününü yadda saxlaması və arzularının dildə izharını rəva bilməsi məndə şok effekti yaratmışdı.

Ş.Məmmədov daim fəaliyyət göstərdiyi sahənin nüfuzunu qaldırmaq, tabeliyindəkiləri peşə şərəfinə xələl gətirəcək addımlardan çəkindirmək, rastlaşdığı ruh düşkünlərinə və passiv mövqelilərə dirilik bəxş etmək arzuları ilə yaşayıb. Deyirlər, xalq şairi Səməd Vurğunun yanında qeyri-sənətdən olan birisini tərifləyəndə bığaltı gülümsünüb, "ayə, sözüm yoxdur ey, yaxşı mütəxəssisdir, amma şair ha deyil" söyləyərmiş. Cənab generalın da ən ümdə məqsədi hərbçi şəxsiyyətinin bütövlüyü, zabit adının pak və müqəddəs saxlanılmasıdır. Hələ 18 yaşından – müddətli hərbi qulluqçu kimi taleyinin bağlandığı Daxili Qoşunlara isə xüsusi rəğbəti var. Bir dəfə ona kimliyi açıqlanmayan komandirin hərbi hissəyə gələn mülki məmuru "farağat" komandası və "heç bir hadisə baş verməyib" məruzəsi ilə qarşıladığı deyiləndə, başını aşağı salaraq bunu qoşunlar üçün xəcalət hesab etmişdi.

Yaxın keçmişə səyahətə çıxaraq ötüb bitənləri xatırlayarkən həmişə vüqarlı gördüyüm insanın qamətinin əyildiyi gün - Gəncədə hərbi hissə komandiri olan qardaşı rəhmətlik Fahin Məmmədovun vaxtsız ölümündən sarsılması da gözlərim qarşısında canlanır. (Doğrudur, belə bədbinlik Qarabağ və ətraf rayonların təcavüzkarın nəzarətinə keçdiyi vaxtlarda da yaranırdı, ancaq sülh danışıqlarının nəticə verməyəcəyi halda, cənab Ali Baş Komandanın əmriylə xalqımızın öz ərazi bütövlüyünün bərpası üçün ayağa qalxacağına inamı tezliklə əhvalını nikbin notlara kökləyirdi). Düşünürəm ki, nə yaxşı özündə güc tapıb həmin ağır itkinin təsirindən qurtuldu, irəli getdi və mərhum qardaşının yarımçıq arzularını başa yetirdi.

Bizim tanışlığımızın ömrü 20 ili arxada qoyub. Bu müddət ərzində o, fəxarətli bir general yolu qət elədi. Yəni, 1993-cü ildəki tabor komandiri, mayor Şahin Məmmədov bu gün ağlı, səriştəsi, professionallığı, idarəçilik məziyyətləri və ölkə rəhbərliyinin böyük etimadı sayəsində Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı məqamında, general-mayor rütbəsindədir. Lakin yenə də özünün Azərbaycanımızın sıravi əsgəri, cənab İlham Əliyevin təbirincə söyləsək, xalqın xidmətçisi sayır.

Bu məqaləni də 12 mart - Daxili Qoşunlarımızın yaranması günü münasibətilə, cənab Komandandan xəbərsiz qələmə aldım. Hədsiz təvazökar xarakterə malik özü buna heç vaxt razı olmayacaqdı, hətta "gərək şəhidlərdən yazaydın" - deyə məni qınayacaq da. Amma axı, hələ savaşın bitmədiyi məmləkətimizdə zəruridir ki, belə şəxsiyyətlərin örnək və ibrət dolu həyat yolunu gənc nəsillərə təqdim edək. Şahinlərin timsalında balalarımıza doğma yurd sevgisi, vətənpərvərlik duyğuları aşılayaq.

**Qurban Cəbrayıl**

**"525-ci qəzet" 12.03.2014, № 044**

3_Layout 1 27.03.2014 12:20 Page 1



**Hər il martın 12-də Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının günü qeyd olunur. Bu günün təsis edilməsi Azərbaycanın sabiq prezidenti mərhum Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun 9 mart 1995-ci il tarixdə imzaladığı fərman bunun əsasını qoyub.**

1992-ci il martın 12-də Daxili Qoşunların şəxsi heyəti Ağdam rayonu ərazisində erməni işğalçılarına qarşı döyüşə başlayıb. Həmin tarixin Daxili Qoşunların günü kimi seçilməsi şəxsi heyətin döyüş ənənələrinə, ağır sınaqlarda göstərdiyi fədakarlığa dövlət səviyyəsində yüksək qiymət verilməsinin təzahürüdür.

Daxili Qoşunların tarixinin Azərbaycan Demokratik Respublikası dövrü (1918-1920) ilə bağlılığı çoxlarına məlum deyil. Arxiv mənbələri araşdırılarkən ADR dövründə Daxili İşlər Nazirliyinin tərkibində ictimai asayişin təmin olunması funksiyasını yerinə yetirən yardım alayının mövcud olmasını təsdiq edən maraqlı faktlar ortaya çıxıb. Könüllü dəstələrin birləşməsindən yaranan həmin alayın rəisi vəzifəsinə ilk olaraq xalqımızın ziyalı oğlu, ictimai xadim, peşəkar hərbçi Yusif Ziya Talıbzadə təyin olunub. Xatırladım ki, görkəmli ədib Abdulla Şaiqin qardaşı olan Y.Z.Talıbzadənin 1923-cü ildə Orta Asiyada şəhid olduğu bildirilir. ADR dövrünə dair bu vacib tarixi fakt barədə ictimaiyyətin məlumatlandırılmasında Daxili Qoşunların Mətbuat xidmətinin sabiq rəisi, "Əməkdar jurnalist" Təranə Məmmədovanın əvəzsiz əməyi var.

SSRİ dövründə nəhəng imperiyanın təhlükəsizlik sütunlarından biri olan Daxili Qoşunların sıralarında xeyli azərbaycanlı zabit, gizir, çavuş və əsgər rütbələrində xidmət ediblər. Həmin soydaşlarımızın o zaman qazandığı xidmət təcrübəsi hədər olmayıb və sonradan respublikamızın mənafeyi üçün istifadə edilib.

Müstəqil Azərbaycanın Daxili Qoşunlarının formalaşması 1991-ci ildə ölkəmizin suverenlik əldə etməsindən sonra mümkün olub. SSRİ DİN Daxili Qoşunların o vaxt Bakı və Sumqayıtda dislokasiya olunmuş hərbi hissələrinin bazasında müstəqil dövlətimizə məxsus yeni hərbi hissələrin yaradılması hərbi quruculuq baxımından mühüm hadisə idi.

# DAXİLİ QOŞUNLAR VƏ İCTİMAİ TƏHLÜKƏSİZLİK FAKTORU



Daxili Qoşunlar ön cəbhədə, silahlı cinayətkarlarla mübarizədə, ictimai təhlükəsizliyin təmin olunmasında çox çətin və şərəfli bir yol keçib.

1992-1994-cü illərdə Ağdam, Ağdərə, Füzuli, Zəngilan və Cəbrayılın barıt qoxulu səngərlərində şücaət nümunələri göstərən Daxili Qoşunların şəxsi heyətindən 510 nəfər şəhidlik zirvəsinə ucalıb, 268 nəfər itkin düşüb, 1166 nəfər isə yaralanıb. Daxili Qoşunların 9 nəfər hərbi qulluqçusu (onlardan 8-i ölümündən sonra) Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Həmçinin, Daxili Qoşunların yüzlərlə hərbi qulluqçusu müxtəlif orden, medal və döş nişanları ilə təltif edilib.

Burada bir faktı qeyd etməyi vacib bilirəm. Bir sıra qəhrəmanlar, dövlətin ali mükafatlarına layiq görülmüş hərbçilər var ki, onları da Daxili Qoşunların yetirməsi saymaq olar. Baxmayaraq ki, onlar hərbi xidmətini və ya xidməti fəaliyyətini digər hərbi qurumlarda, habelə hüquq-mühafizə orqanlarında davam etdirib. Belə ki, adı geniş ictimaiyyətə bəlli olan Milli Qəhrəman mərhum Mübariz İbrahimov əsgəri xidmətini Daxili Qoşunların hərbi hissəsində keçib.

1994-cü ilin mayında ön cəbhədə atəşkəs elan olunduqdan sonra da Daxili Qoşunların şəxsi heyəti döyüş mövqelərini tərk etməyib. 1999-cu ilin əvvəlinədək Daxili Qoşunların hərbi hissəsi Füzuli rayonu ərazisində təmas xəttinin keşiyində dayanıb.

1994-cü il fevralın 8-də "Daxili Qoşunların statusu haqqında" Qanun qüvvəyə minib. Ötən illərdə Daxili Qoşunların şəxsi heyəti ölkə paytaxtı və bölgələrdə terrorçu qrupların zərərsizləşdirilməsi, kütləvi iğtişaşların qarşısının alınması, təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması, mühüm dövlət obyektlərinin və xüsusi yüklərin qorunması kimi dövlət əhəmiyyətli tapşırıqların uğurla yerinə yetirilməsinə müvəffəq olub.

Diqqətəlayiq bir faktdır ki, hərbi şərəf və hünər rəmzi olan döyüş bayrağının ölkənin ilk təqdim olunduğu hərbi qurumlarından biri də Daxili Qoşunlardır.

Bu gün Daxili Qoşunlar yüksək maddi-texniki təchizata malik və peşəkar bir qoşun növü kimi fərqlənir. Müasir standartlara uyğun yenidən qurulan hərbi hissələr, yeni texnika və silahlar, xüsusi vasitələr, habelə helikopterlər, geniş imkanlara malik təlim bazası Daxili Qoşunların potensialı barədə kifayət qədər aydın təsəvvür yaradır.

Keçdiyi inkişaf yolunda Daxili Qoşunların funksiyaları bir sıra dəyişikliklərə məruz qalıb. Məsələn, 1993-cü ildə cəzaçəkmə müəssisələrinin mühafizəsi funksiyası Daxili Qoşunlardan alınaraq müvafiq ədliyyə strukturlarına verilib. Bununla belə, ötən dövrdə bəzi funksiyalardan tam həcmdə istifadə olunmayıb.

Ümumiyyətlə, ötən dövrlərdə Daxili Qoşunlarda həyata keçirilən çoxşaxəli islahatlar bəzi struktur dəyişikliklərinə, təlim proqramlarının təkmilləşdirilməsinə, beynəlxalq əməkdaşlıq əlaqələrinin qurulmasına gətirib çıxarıb. Ancaq bununla yanaşı, Daxili Qoşunların statusunun yeni məzmunu, yəni indiki vəziyyətindən qismən hərbi, qismən də hüquq-mühafizə qurumu vəziyyətinə keçid prinsipləri və mexanizmləri müzakirələrin mövzusudur. Bu məsələnin yaxın perspektivdə gündəmə gəlməsi istisna deyil. Ancaq belə fikirlər də mövcuddur ki, indiki nə hərb, nə sülh reallığında bu məsələ elə də aktuallıq kəsb etmir.

Dünyanın bir çox ölkələrində Daxili Qoşunların vəzifələrinə bənzər funksiyaları yerinə yetirən strukturlar var. Məsələn, jandarm, karabinerlər kimi qurumları buna misal göstərmək olar. Bu baxımdan jandarm təşkilatlarının modeli təcrübə mübadiləsi üçün daha cəlbedicidir. Hazırda Daxili Qoşunlar Türkiyə Jandarm Təşkilatı ilə sıx əməkdaşlıq əlaqələrinə malikdir. Xüsusi vurğulamağa dəyər ki, Türkiyə Jandarm Təşkilatı Azərbaycanın Daxili Qoşunlarının inkişafına ötən müddətdə davamlı dəstək göstərib.

Bu gün Daxili Qoşunlar ictimaiyyətlə əlaqələr məsələsində stabil mövqe nümayiş etdirən qurumdur. Son illər bir sıra gənclər təşkilatı, universitetlər, orta məktəblərlə birgə ictimai layihələr həyata keçirilib. Daxili Qoşunlarda əsgər valideynləri ilə müntəzəm görüşlər də təşkil olunur. Veteran təşkilatının da yaradıldığı Daxili Qoşunlarda veteranlara diqqət və qayğı göstərilir.

Bu gün cəmiyyətdə bəzi destruktiv mövqeli mətbuat orqanları və informasiya saytları Daxili Qoşunlar barədə ictimaiyyətdə yanlış təsəvvür formalaşdırmağa cəhd edirlər. Həmin çevrələr əvvəllər də bu yöndə iş aparsa da, ictimai rəydə dəstək qazana bilməyib. Çünki cəmiyyətin əksər hissəsi sabitlik və ictimai təhlükəsizlik faktoruna böyük dəyər verir. Daxili Qoşunlar da ictimai təhlükəsizliyin qorunmasını təmin edən mühüm güc qurumlarından biridir.

**Y.Abbasov, ehtiyatda olan kapitan, Daxili Qoşunların Veteranlar Şurasının üzvü**

**P.S.** *Bu yazı "Bakı xəbər" qəzetinin 7 Mart 2014-cü il tarixli 41 saylı buraxılışında dərc olunmuşdur.*

# ÖMRÜNÜN 22-ci BAHARINDA ŞƏHİDLİK ZİRVƏSİNƏ YÜKSƏLDİ

***Çingizxan yaşasaydı, martın 21-də 44 yaşını qeyd edəcəkdi...***




**1990-cı illər Azərbaycan xalqının tarixində ən çətin və məşəqqətli illər idi. Torpaqlarımızın azadlığı uğrunda az qala hər gün neçə-neçə igid oğullarımız qəhrəmancasına həlak olurdu.**

**Müharibənin sərt rüzgarı Çingizxan Kərimovdan da yan keçməmişdi. O, Vətənin ən ağrılı, acılı günlərində müharibədən kənarda qalmağı özünə sığışdıra bilməmiş və könüllü olaraq döyüş bölgəsinə yollanmışdı.**

Yazımın sözün əsl mənasında qəhrəmanı hələ uşaqlıqdan həmyaşıdlarından fərqlənirdi.

O, 1970-ci ildə Bakı şəhərində anadan olmuşdu. Rus bölməsində oxumasına baxmayaraq, Azərbaycan ədəbiyyatını mükəmməl bilirdi. Əslən Cənubi Azərbaycandan olduğundan daha çox Şəhriyarın, Səhəndin, Sönməzin əsərlərini mütaliə edirdi. Bu şeirlərdəki millətin istiqlala qovuşması naminə igid oğulların canından, qanından keçməsi ideyası hələ uşaqlıqdan onun qəlbinə, ağlına hakim kəsilmişdi. Elə hərbçi peşəsini seçməsinin də səbəbi bu idi.

1987-ci ildə Perm şəhəri Ali Hərbi Komandirlər məktəbinə daxil olmuş və 1991-ci ildə həmin məktəbi bitirmişdi. Təyinatla Qazaxstan Respublikası Selinoqrad vilayətinin Stepnoqorsk şəhərinə göndərilmişdi.

Çingizxanın ali hərbi təhsil dövrü SSRİ-nin son illərinə düşdüyündən onun tez-tez "odlu" nöqtələrə ezam edirdilər. Hər dəfə növbəti ezamiyyətdən sonra valideynlərinin ünvanına təşəkkürlərlə dolu məktublar gəlirdi. Həmin məktublardan birində Çingizxanın öz həyatını təhlükə qarşısında qoyaraq Qiqant və Fərqanədə 120 mexseti türkünün ailəsini ölümün cəngindən qurtarması haqqında məlumat verilmiş və belə igid oğul böyütdüyü üçün valideynlərinə dərin minnətdarlıq ifadə olunmuşdu.



Təhsilini başa vurduqdan sonra leytenant Kərimov bir müddət Permdə qalır, peşəsini daha da mükəmməl öyrənir. Lakin Vətənin ağır günlərinə dözə bilmir və öz bilik, bacarığını Vətənə basqın edən erməni təcavüzkarlarına qarşı yönəltməyə qərar verir.

**1992-ci ilin aprelində Vətənə qayıdır və Azərbaycan Respublikası Daxili Qoşunların hərbi hissələrindən birində taqım komandiri kimi xidmətə başlayır. Qısa müddət ərzində tabeçiliyində olan taqımın əsgərlərində yüksək döyüş qabiliyyəti yaradır. Bilik və bacarığına görə hərbi hissə komandanlığının və şəxsi heyətin nüfuzunu qazanır.**

Lakin Qarabağda vəziyyət günü-gündən ağırlaşırdı. Ürəyi daim Vətən sevgisi, Vətən eşqi ilə çırpınan Çingizxan Daxili İşlər Nazirliyinə müraciət edir və Qarabağa getmək istədiyini bildirir. Razılıq alır, 2 ay müddətində 50 nəfər əsgərlə təlim keçir və respublikamızın ərazi bütövlüyü uğrunda ən qızğın döyüşlərin getdiyi Ağdam bölgəsinə göndərilir. Sırxavənd və Naxçivanik uğrunda gedən döyüşlərdə fəal iştirak edir, qoçaqlıq və mərdlik göstərir. Onun bölüyü 2 əməliyyatı uğurla başa çatdırır. İyun ayının 27-də keçirilən üçüncü döyüş isə təəssüf ki, Çingizxan üçün sonuncu olur. Qolundan və çiynindən ağır yaralansa da, o əsl hərbçi kimi davranır, döyüş meydanını tərk etmir, dəstəni komandirsiz qoymağı özünə sığışdırmır. Əsgər yoldaşlarını mühasirədən çıxarmağa müvəffəq olur. Yoldaşları onu Ağdam xəstəxanasına çatdıranda isə artıq gec idi. Həkimlər nə qədər cəhd etsələr də, onu həyata qaytara bilmirlər.

**Namərd gülləsi onu çox erkən yaşlarında-ömrünün 22-ci baharında yaxaladı. Yaşasaydı, mart ayının 21-də 44 yaşını qeyd edəcəkdi. Kim bilir, bəlkə də ailəsində yeni qəhrəmanlar, "Çingizxan"lar böyüdəcəkdi. Nə qədər acı olsa da, yalnız onunla təsəlli tapmaq olar ki, Çingizxan Vətən qarşısında öz borcunu şərəflə yerinə yetirdi və ən uca mərtəbəyə - Şəhidlik zirvəsinə ucaldı.**

Müharibə Çingizxan və onun kimi minlərlə qəhrəman oğullarımızı bizdən aldı. Lakin unutmamalıyıq ki, torpaq uğrunda ölən varsa, Vətəndir. Onların xatirəsi bizim üçün əzizdir və qəlbimizdə əbədi olaraq yaşayacaqdır!

**gizir X.Tağıyeva**

***Ümummilli Lider Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanı ilə 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunmağa başlamışdır. Fərmanda göstərilir ki, Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırım siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə-1918-ci il mart qırğınına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Bu gün isə Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi, onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü ilə yerinə yetirməkdədir.***

# 31 MART-AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ



Hələ XX əsrin əvvəllərində "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmiş, Bakıdan başlanan vəhşiliklər Azərbaycanın bir çox hissəsini və indiki Ermənistan ərazilərindəki azərbaycanlı yaşayış məntəqələrini əhatə etmişdir.

**Mart hadisələri zamanı azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və başqa bölgələrdə xüsusi qəddarlıqla həyata keçirilmişdir. Belə ki, Şamaxının Əngəsirxan kəndində 150 adam öldürülmüş, Navahı, Mehniman, Cəyirli kəndləri yandırılmış, dağıdılmış və dinc əhali silahdan keçirilmişdir. Qubanın yalnız bir kəndində 555 kişi, 260 qadın, 140 uşaq öldürülmüşdür. Zəngəzur qəzasının Buqudu kəndində 400 adam məscidə doldurulmuş, sonra yandırılmışdır. Zəngəzur qəzasında 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1061 kişi, 799 qadın və 485 uşaq yandırılmışdır. Ümumilikdə isə öldürülənlərin sayı 12 min nəfərdən çox olmuşdur.**

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq komissiyası yaratmışdır. Komissiya bu soyqırımı araşdırmış, Xarici İşlər Nazirliyi nəzdində isə soyqırım həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün xüsusi qurum yaradılmışdı, 1919 və 1920-ci ilin mart ayının 31-i isə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırıma və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Zaqafqaziyanın sovetləşdirilməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan ərazisi elan etdilər. Sonrakı dövrlərdə isə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi (məcburi köçürülməsi) siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 23 dekabr 1947-ci il tarixli xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi deportasiyasına dövlət səviyyəsində nail oldular.

**31 mart - Azərbaycanlıların Soyqırımı Günü birmənalı olaraq, xalqımıza qarşı törədilən qanlı hadisələri tarixi yaddaşımıza əbədi həkk edən bir gün kimi xüsusi anılmalıdır.**

**"Əsgər"**

4_Layout 1 27.03.2014 12:21 Page 1



## BİZİM ŞÜAR:

**“MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!”**

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də davam etmişdi. **1922-1923-cü** illərdə “yoldaş” Kirov tərəfindən Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, **1929-cu ildə** Əliheydər Qarayev tərəfindən Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, **1946-cı ildə** Mir Cəfər Bağırov tərəfindən 40 kv.km-lik meşə sahəsi, **1969-cu ildə** Vəli Axundov tərəfindən Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi, **1984-cü ildə** isə Kamran Bağırov tərəfindən Qazax rayonundan torpaq sahəsi ermənilərə verilmişdir.

**1988-ci ildə** Azərbaycanın ərazisi 86,6 min kv.km idi.

**1988-1993-cü illərdə** aşağıdakı ərazilər işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

## Allah rəhmət eləsin

17077 saylı hərbi hissənin şəxsi heyəti polkovnik-leytenant İmran Rəhimova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12565 saylı hərbi hissənin şəxsi heyəti polkovnik-leytenant Rasim Heydərova **qardaşının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

67987 saylı hərbi hissənin şəxsi heyəti mayor Rəşadət Süleymanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25031 saylı hərbi hissənin şəxsi heyəti mayor Müşviq Zeynalova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin şəxsi heyəti baş çavuş Sima Məmmədovaya **qardaşının** vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# İDMANÇIMIZ “ƏN YAXŞI TEXNAR” ADINA LAYİQ GÖRÜLDÜ

***Daxili Qoşunların hərbi qulluqçularının fiziki hazırlığı daima diqqət mərkəzində saxlanılır. Beynəlxalq və yerli turnirlərdə qoşunları təmsil edən idmançıların əldə etdiyi uğurlar artıq peşəkar idman rəsmilərinin də maraqlarını cəlb edir desək, yanılmarıq. Beynəlxalq yarışlar zamanı hərbi qulluqçularımızın ardıcıl nailiyyətləri bunu deməyə əsas verir.***

Daha bir sevindirici xəbər Ukraynanın Kurvoyroq şəhərində keçirilən turnirdən gəldi. Azərbaycanı Daxili Qoşunların iki hərbi qulluqçusu gizir Vüsal Gözəlov (DQBİ) və baş çavuş Cavid Həsənov (67987 saylı hərbi hissə) təmsil edirdi.

Ən ağır çəkidə (120 kq.) qüvvəsini sınayan idmançımız V.Gözəlov çeçen əsilli Polşa nümayəndəsini elə ilk raundda nakauta salmağı bacardı. Finalda isə Vüsala qalib gəlməyəcəyini anlayan rəqibi tatami üzərinə çıxmadan texniki məğlubiyyətlə barışıb. Beləliklə, gizir V.Gözəlov I yerə layiq görülüb.

Baş çavuş C.Həsənov (52 kq.) da komanda yoldaşının uğurunu təkrarlayıb. Ukrayna, Qazaxıstan və Polşalı rəqiblərinə əməlli başlı “dərs” verən pəhləvanımız I yerə yüksəlib. Hər iki təmsilçimiz kubok, medal və diplomla təltif olunub.

Qeyd edək ki, baş çavuş C.Həsənov döyüşdə qeyri-adi texnika nümayiş etdirdiyinə görə həm də “yarışın ən yaxşı texnarı” adına layiq görülərək daha bir kuboka sahib olmuşdur.

İdmançılarımıza Qazaxıstanda keçirilməsi nəzərdə tutulan növbəti beynəlxalq turnirdə qalib olmalarını arzulayırıq.

* * * *

Martın 2-3-də Daxili Qoşunların yaranmasının 22-ci ildönümü münasibətilə qoşunların hərbi qulluqçuları arasında atıcılıq üzrə yarış keçirilmişdir. Yarışda Ali Hərbi Məktəbdən, 99713, 67987, 17072, 17074, 16077, 16073, 25032, 25031, 25033, 16075, 16076 və 17077 saylı hərbi hissələrdən 13 komanda olmaqla 76 nəfər iştirak etmişdir. Şəxsi və komanda birinciliyi uğrunda yarışın nəticələri aşağıdakı kimi olmuşdur:



**AKM**

**I yer** - baş gizir Pərviz Süleymanov (67987 saylı hərbi hissə)
**II yer** - çavuş Məhəmməd Atayev (16073 saylı hərbi hissə)
**III yer** - çavuş Əlvan Hüseynov (17074 saylı hərbi hissə)

**Makarov tipli tapança (kişilər arasında)**

**I yer** - polkovnik İlqar Məmmədov (AHM)
**II yer** - kursant Tamerlan Başirov (AHM)
**III yer** - leytenant Elşən İbadov (99713 saylı hərbi hissə)

**Makarov tipli tapança (kişilər arasında) PM-1**

**I yer** - polkovnik İlqar Məmmədov (AHM)
**II yer** - baş leytenant Valeh İbrahimov (17072 saylı hərbi hissə)
**III yer** - leytenant Elşən İbadov (99713 saylı hərbi hissə)

**Makarov tipli tapança (kişilər arasında) PM-4**

**I yer** - polkovnik İlqar Məmmədov (AHM)
**II yer** - kursant Tamerlan Başirov (AHM)
**III yer** - baş çavuş Şamil Əhmədov (17074 saylı hərbi hissə)

**Makarov tipli tapança (qadınlar arasında)**

**I yer** - gizir Təranə Əhmədova (99713 saylı hərbi hissə)
**II yer** - gizir Rəhilə Şıxıyeva (AHM)
**III yer** - baş çavuş Aygün Qasımova (16076 saylı hərbi hissə)

**Makarov tipli tapança (qadınlar arasında) PM-1**

**I yer** - gizir Təranə Əhmədova (99713 saylı hərbi hissə)
**II yer** - baş əsgər Pərvanə Mütəllimova (16077 saylı hərbi hissə)
**III yer** - gizir Rəhilə Şıxıyeva (AHM)

**Makarov tipli tapança (qadınlar arasında) PM-5**

**I yer** - gizir Təranə Əhmədova (99713 saylı hərbi hissə)
**II yer** - baş çavuş Aygün Qasımova (16076 saylı hərbi hissə)
**III yer** - baş əsgər Dinarə Xudaverdiyeva (67987 saylı hərbi hissə)

***Yarışda komanda üzrə göstərdikləri nəticələrə görə 99713, AHM və 17074 saylı hərbi hissə ilk üçlüyü bölüşmüşlər.***

* * * *

Daha bir turnir martın 4-dən 6-dək daxili işlər orqan və hissələri arasında idmanın güc çoxnövçülüyü üzrə keçirilmişdir.

Yarışda Daxili Qoşunların yığma komandası 9 idmançı və 1 nümayəndə ilə təmsil olunmuşdur. Ağırlıq çəki daşları qaldırma üzrə şəxsi birincilikdə 75 kq çəki dərəcəsində əsgər Fərid Nəsirov (25031) 1-ci yer, 70 kq çəki dərəcəsində kiçik çavuş Sərxan Şamxalov (17074) və 80 kq çəki dərəcəsində kiçik çavuş Məmməd Paşayev (67987) 2-ci yer, 70 kq çəki dərəcəsində gizir Tayfur Adıgözəlov (25031) və 90 kq çəki dərəcəsində kiçik çavuş Rasim Yaxin (99713) 3-cü yer, qol güləşi üzrə şəxsi birincilikdə 70 kq çəki dərəcəsində əsgər Əfqan Zaxmayev (25031) və +90 kq çəki dərəcəsində kiçik çavuş Faiq Abbasov (67987) 1-ci yer, 80 kq çəki dərəcəsində kiçik çavuş Məmməd Paşayev (67987) 3-cü yeri tutmuşdur.

**Ümumilikdə, qoşunları təmsil edən 9 hərbi qulluqçudan səkkizi qalib adına imza atmışdır. Daxili Qoşunların yığma komandası komanda birinciliyində II yerə layiq görülmüşdür.**

**baş leytenant T.Əlizadə**

**Martın 13-də Nizami Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində “Şahinlər” hərbi-idman oyunlarının rayon məktəbləri üzrə final mərhələsi keçirilib.**

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Tahir Budaqov Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən ordu quruculuğuna xüsusi diqqət və qayğı göstərildiyini qeyd edib. İcra hakimiyyətinin başçısı dövlətimizin gənclər siyasətində hərbi-vətənpərvərlik sahəsinin mühüm yer tutduğunu diqqətə çatdıraraq, belə tədbirlərin bu işdə mühüm rol oynadığını vurğulayıb.

T.Budaqov qeyd edib ki, “Azərbaycan gəncliyi-2001-2015-ci illərdə” Dövlət Proqramında gənclərin hərbi hazırlıq səviyyəsinin gücləndirilməsi, onlara hərbi-vətənpərvərlik hisslərinin aşılanması və təbliği məsələləri öz əksini tapıb. Bu yarışlar yeniyetmələrin və gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi işinin daha da gücləndirilməsi, orta məktəb şagirdlərini hərbi-idman oyunlarına geniş cəlb etməklə, onların ordu sıralarında xidmətə hazırlanması və turizm hərəkatının inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir.

## “ŞAHİNLƏR” HƏRBİ-İDMAN OYUNLARININ FİNAL MƏRHƏLƏSİ KEÇİRİLİB

Nizami rayonu ərazisində məktəblərin bilik yarışmalarında, idman oyunlarında və xüsusi müsabiqələrdə əldə etdiyi nailiyyətlərin ali məktəblərə qəbul imtahanlarında rayonun yüksək nəticə qazanmasının, təhsil və idman sahəsində əldə edilən uğurların göstərici olduğu vurğulanıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatları Sədaqət Vəliyeva, Rasim Musabəyov və başqaları qeyd edib ki, əsas məqsəd böyüməkdə olan gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsinə diqqət və qayğının daha da artırılması, həmçinin məktəb şagirdlərinin ordu sıralarında xidmətə hazırlanmasına kömək göstərilməsidir.

Sonra rayon üzrə 24 orta ümumtəhsil məktəbinin 400-dən çox şagirdi arasında yarışlar başlanıb. Komandalar iki mərhələdə səkkiz idman növü üzrə müxtəlif sınaqlardan keçməklə öz bacarıqlarını nümayiş etdirib. İlk olaraq şagirdlər təntənəli marşla tribuna önündən keçib və onların sıra hazırlığının səviyyəsi yoxlanılıb.

Sonra komandalar fiziki hazırlıq, maneənin dəf olunması, mülki müdafiə hazırlığı, tullanma, qaçış, çətin maneələri aşma kimi mərhələlərdə öz qüvvələrini sınayıb. Hərəkətlər təyin olunan hakimlər tərəfindən beş ballıq sistem üzrə qiymətləndirilib.

Yarışlarda qalib gələn məktəbin komandası “Şahin” hərbi-idman oyununun Bakı şəhəri üzrə zona birinciliyində iştirak etmək hüququ qazanıb.

## NÜMUNƏVİ XİDMƏT



99713 saylı hərbi hissədə manqa komandiri vəzifəsində xidmət edən **əsgər Vüqar Səyyad oğlu Cümşüdlü** 1992-ci il iyulun 19-da Füzuli rayonunda anadan olub. 2013-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetini bitirib. Elə həmin ilin iyul ayından hərbi xidmətdədir. Əsgər V.Cümşüdlü xidmətə başladığı ilk gündən özünün nizam-intizamı, bilik və bacarığı ilə həm əsgər yoldaşlarının, həm də hissə komandanlığının dərin hörmət və inamını qazanmışdır. Elə bunun nəticəsidir ki, o, hərbi hissə komandiri tərəfindən dəfələrlə mükafatlandırılmışdır.

Daxili Qoşunların tərkibində vətənə xidmət etməyi özü üçün ən böyük qürur hesab edən Vüqar Vətənə sevgi, dövlətə sədaqət ruhunda tərbiyə olunduqlarını söylədi.

O, həmçinin qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqları çevik sürətdə və yüksək dəqiqliklə yerinə yetirir. Peşə vərdişlərinin artırılması məqsədilə həm nəzəri, həm də praktiki təlimlərdə fəallıq göstərməyə çalışdığını deyən əsgər V.Cümşüdlü ataş və fiziki hazırlıq məşğələlərinə xüsusi önəm verildiyini bildirdi. Söhbət zamanı zabitlərin əsgərlərə olan münasibətindən danışan müsahibim bütün hərbi qulluqçuların onlara xüsusi diqqətlə yanaşdığını, daim şəxsi heyətin qayğısına qaldığını da sözlərinə əlavə etdi.

Əsgərlik həyatının ona çətin vəziyyətlərdən qısa zaman ərzində çıxış yolu tapmağı, təmkinli, dözümlü olmağı öyrətdiyini söylədi. O, həmçinin “Əsgər” qəzeti haqqında fikirlərini və təkliflərini də bölüşməyi unutmadı. Öyrəndim ki, müsahibim ən çox “Nümunəvi xidmət” və “Bilirsinizmi?” guşələrini oxuyur.

Qeyd edim ki, Vüqar 2013-cü ildə ali təhsilin magistr pilləsinə keçirilən imtahanlarda yüksək nəticələr əldə etmişdir. Xidmətini başa vurduqdan sonra təhsilini davam etdirməyi, öz ixtisasının mütəxəssisinə çevrilməyi planlaşdırır. Əslən Füzulidən olan əsgər V.Cümşüdlünün ən ümdə arzusu isə işğal altında qalan torpaqlarımızın tez bir zamanda azad olunmasıdır.

Əsgərimizə bundan sonrakı həyatında arzularını gerçəkləşdirmək üçün atacağı addımlarda uğurlar arzulayırıq.

**gizir X.Tağıyeva**

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: mayor R.Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-21

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000